UOT 7(091)

*Naibə Vəliyeva*
*Bakı Xoreoqrafiya Akademiyasının dissertantı*
*AZ 1014, Bakı, Rəşid Behbudov 75*
*E-mail:* veliyevam83@mail.ru

# XX ƏSRİN 70-80-Cİ İLLƏRİ RƏSSAM SİRUS MİRZƏZADƏNİN YARADICILIĞININ ERKƏN MƏRHƏLƏSİ KİMİ

**Xülasə**: Məqalə Əməkdar rəssam S.Mirzəzadənin yaradıcılığının erkən dövrünə həsr edilmişdir. Müəllif qeyd edir ki, ötən əsrin 70-80-ci illəri rəssamın yaradıcılığının erkən dövrü kimi səciyyələndirilir. Həmin dövrdə S.Mirzəzadə monumental rəngkarlıqla yanaşı, dəzgah incəsənəti nümunələri də yaratmışdır. Bu əsərlər kompozisiya sadəliyi, realist məzmun, parlaq milli kolorit xüsusiyyətləri iləseçilir. Üstündən xeyli vaxt keçməsinə baxmayaraq həmin tablolar bu gün də maraq doğurur və rəssamın yaradıcılığının erkən dövrünün qiymətləndirilməsində müəyyən rol oynayır.
**Açar sözlər:** Sirus Mirzəzadə, Azərbaycan incəsənəti, rəngkarlıq, natürmort, incəsənətdə əmək mövzusu.

70-80-ci illər rəssam S.Mirzəzadənin yaradıcılığının erkən dövrüdür. Gənc rəssam bu dövrdə zəhmət, kənd həyatı, beynəlxalq münasibətlər mövzusunda yağlı boya ilə yaddaqalan tablolar çəkmişdir. Həmin dövrdən bu vaxta qədər çox illər ötmüş, ictimai-siyası həyatda mühüm dəyişikliklər baş vermişdir. Lakin buna baxmayaraq bu tablolar indi də onun yaradıcılığında müəyyən əhəmiyyət daşıyır.

Maraqlıdır ki, özünün monumentalçı olmasına baxmayaraq S.Mirzəzadənin 70-ci illərdə yaratdığı erkən dövr dəzgah əsərləri monumentalizmdən uzaqdır. Əksinə, burada dəzgah incəsənətinə xas olan cəhətlər – kompozisiya genişliyi, detalların çox vaxt kiçik ölçüdə verilməsi, realist süjet xətti və s. daha çoxdur. Bu xüsusiyyətlər onun həmin illərdə işlədiyi bir çox tablolarda – “Ağ yelkənlər”, “Deltaplaneristlər”, “Zirvəyə gedən yol”, “Zavoda gedən yol” və başqalarında özünü büruzə verir. Həmin tablolar üçün geniş perspektiv, xətti quruluşun düzgünlüyü, detallaşdırma, aşıq rəng tonları və s. səciyyəvidir.

“Zirvəyə gedən yol” (1977) rəssamın erkən yaradıcılıq nümunələrindən biridir. Rəssam onu Moskvada ali təhsilini başa vurub qayıtdıqdan cəmi 5 il sonra çəkmişdir. Yağlı boya ilə işlənmiş bu erkən sənət nümunəsi olduqca sadə və realist üslubda işlənilmiş kompozisiyası ilə yadda qalır. Geniş mənada bu tablonu tematik mahiyyətin müəyyən qədər əks olunduğu mənzərə janrı adlandırmaq olar. Tabloda müəyyən qədər həmin dövr incəsənətinə xas olan tendensiyalılıq təmayüllərinin təsiri özünü büruzə verir. O dövrdə mənzərə janrının sovet incəsənəti üçün xarakterik hesab edilən növmüxtəliflikləri meydana çıxmışdı. Zavod mənzərəsi, sənaye mənzərəsi, tikinti-quruculuq mənzərəsi kimi sahəvi mənzərə janrları demək olar ki, rəsmi statusa malik idilər. Şübhəsiz ki, sözü gedən tabloda dövrün bu kimi tələblərinin təsiri olmamış deyil. Eyni zamanda rəssam genişliyə, səmanın, dənizin ənginliyini, intəhasızlığını əks etdirməyə meylli olmuşdur. Ona görə də o, sənaye mənzərələrini qəbul olunmuş formada deyil, bir qədər fərqli tərzdə - böyük olmayan detalların sərbəst yerləşdiyi geniş kompozisiya şəklində əks etdirirdi. Bu xüsusiyyətlər haqqında danışılan tabloda aydın görünür. Əsərdə arxa plana doğru uzanan geniş asfalt yol təsvir olunur. Asfalt yolu kompozisiyaya paralel uzanan dəmir yolu kəsir. Bu kəsişmədə xarakterik

qurğular – xəbərdaredici nişanələr, ağ-qara zolaqlı metal dirəklər, şlaqbaum və s. nəzərə çarpır. Kompozisiya aşağı baxış bucağına malikdir; buludsuz, lakin həm də günəşsiz durğun səma onun dörddə üç hissəsini tutur. Aşağıda qalan dörddə bir hissə asfalt yoldan, onun hər iki tərəfi ilə uzanıb gedən qumsal təpələrdən ibarətdir. Əsərdə başqa demək olar ki, heç nə təsvir edilməyib; kompozisiyanın kənarında, üfüqdə bir-birinə qısılmış ağ, kiçik kənd evləri nəzərə çarpır. Əsərdə adam da yoxdur. Şübhəsiz ki, o zaman çox gənc olan müəllif kompozisiyanı "Zirvəyə gedən yol" adlandırmaqla məcazi mənanı nəzərdə tutmuş, neft mədənlərinə, buruqlara, fəhlə qəsəbələrinə uzanan bu kimsəsiz yolu əməkçi gənclərin gələcək inkişafının əsası kimi təqdim etmək istəmişdir. Əsərdəki quru mənzərə Abşeron landşaftını əks etdirir. Ətrafda neft buruqları görünməsə də bu kimsəsiz yolun məhz mədənlərə gedən yol olduğu şübhə doğurmur. Rəssam bu yolu boş təsvir etmişdir; lakin onu diqqətlə izləyən təəssübkeş tamaşaçı hiss edir ki, daha bir neçə an keçəcək, içi mədənə gedən fəhlə-gənclərlə dolu avtobus, yaxud yükmaşını gurultuyla şütüyərək buruqlara sarı istiqamətlənəcək. Sonra isə neft yüklü qatar kəskin fit verərək gəlib keçəcək...

Həmin illərdə əmək, zəhmət mövzuları demək olar ki, bütün rəssamların yaradıcılığında öz əksini tapırdı. Şübhəsiz ki, bu, dövrün, ideologiyanın tələbi idi. S.Mirzəzadə də həmin mövzuda əsərlər işləyib. «Məhsul bayramı» (1982), «Qələbəyə salam atəşi» (1985), «İlin üç dövrü» (1982), həmçinin «Günəşli gün» (1982), «Məhsuldarlıq», «Xalçaçılar» (hər ikisi -1983) kimi əsərlər rəssamın yaradıcılığının erkən dövrünü təmsil edirlər. Bu tablolarda mövcud ideologiyanın təsiri özünü büruzə verir. Eyni zamanda rəssam həmin əsərlərdə real hadisələri, sadə insanlar arasından seçdiyi qəhrəmanları realist vasitələrlə, özünün duyduğu, görüb anladığı tərzdə əks etdirməyə çalışmışdır. Bu baxımdan "Məhsul bayramı" əsəri daha əlamətdar və cəlbedicidir. Rəssam burada bütün ömrünü zəhmətdə keçirən, ağsaqqal adını əməyi, təmiz adı ilə qazanan müdrik insan – qoca obrazı yaratmışdır.

Ötən əsrin 80-ci illərində S.Mirzəzadə tematika, portret, məişət janrları ilə yanaşı, natürmort janrında da fırçasını sınamışdır. Ümumiyyətlə, hər bir gənc rəssamda olduğu kimi, S.Mirzəzadənin də yaradıcılığında bu dövr axtarış dövrü kimi qiymətləndirilə bilər. Ona görə də 70-80-ci illərdə rəssamın müxtəlif janrlara üz tutması təsadüfi deyildi. Sonrakı dövrlərdə, o cümlədən müasir dövrdə S.Mirzəzadə natürmorta rəmzi aləmin bir hissəsi kimi yanaşaraq onu yaradıcılığına xas dekorativ elementlərlə zənginləşdirir.

Rəssamın yaradıcılığının erkən dövrünə aid "Qızıl balıqlar" (1982) natürmortu tünd fonda, klassik üslubda işlənmiş əsərdir. Bu əsər bir qədər XVII əsr holland natürmort sənətini yada salır və yəqinki, onların təsiri altında işlənmişdir. Məlum olduğu kimi, həmin dövrdə kiçik dükanda, piştaxta önündə ipdən asılmış balıqların, quşların, hətta dovşanların təsvirini işləmək Hollandiya incəsənətində geniş yayılmışdı. "Qızıl balıqlar" natürmortunda S.Mirzəzadə tünd qəhvəyi fonda ipə keçirilmiş bir neçə kiçik qızıl balıq çəkmişdir. Qeyd edək ki, balıqlar kompozisiyanın mərkəzində yox, onun yuxarı sol küncündə təsvir edilib. Kompozisiyanın digər hissələri ümumi rəng tonlarından ibarətdir və əsasən neytral xarakter daşıyır.

S.Mirzəzadənin erkən dövr natürmortlarından biri də "Ağ balıqqulağı" adlanır. Tünd qəhvəyi fon etibarilə bu əsər "Qızıl balıqlar" natürmortuna yaxındır. Lakin kompozisiyanın daha düzgün qurulması, elementlərin çoxluğu, aralarındakı mütənasiblik baxımından ondan üstündür. Bundan başqa arxa plan neytral fon olmayıb üzəri naxışlı pərdədən ibarətdir ki, bu da tablonu daha effektli göstərir. Sözü gedən natürmortda güldanı əvəz edən dar boğazlı, dördkünc formalı uzun butulka və onun yanında nisbətən iri balıqqulağı təsvir olunub. Güldana (butulkaya) uzunsov formalı çəhrayı-qırmızı çöl gülləri qoyulub. Natürmortdakı tünd rəngli yaylığın üzərində də güllər vardır ki, bunlar da təbii çiçəklərlə maraqlı ahəngdarlıq təşkil edir. Bu natürmort əsəri adını kompozisiyada təsvir edilən balıqqulağıdan almışdır. Doğrudan da güldan və güllü pərdə ilə müqayisədə balıqqulağı qeyri-adi əşya kimi diqqəti daha tez cəlb edir. "Üstündə açıq qırmızı, zəif yaşılı və yasəməni rənglərdə tikmə olan pəncərə pərdəsi bütövlük rəmzi kimi baxılır. Rəsmin boş yerləri pərdə kimi tünd şabalıdı boyaya tutulub. «Ağ balıqqulağı» natürmortuna gözünün qıyıilə baxsan, balıqqulağıdan ucalan okean dalğalarının gur səsini, nəğməkar səsini eşidəcəksən" [1].

Yaradıcılığının erkən dövründə S.Mirzəzadə idman mövzusunda tematik-mənzərə xarakterli tablolar yaratmışdır. Onlardan biri də "Ağ yelkənlər" (1983) əsəridir. Əsərdə yelkənli qayıqsürmə idmanı səhnəsi öz əksini tapıb. Burada dənizdə, ön planda, demək olar ki, bir xətt üzərində bir neçə idman qayığı təsvir edilmişdir. Qayıqların iti üçbucaq formalı ağ yelkənləri vardır; əsərin adı da bununla əlaqədardır. Bununla yanaşı, hər bir qayığın sarı-qırmızı, yaxud digər rəngdə iri ölçülü yelqovanı da vardır ki, bu da tablonu rəngarəng edir. Tabloda əsas rəng göy rəngdir; o, həm səmanı, həm də dənizi əks etdirir. Müəllif göy rəngin müxtəlif keçidlərindən, çalarlarından məharətlə istifadə etməklə realist, canlı təsir bağışlayan dəniz mənzərəsini və buludsuz səmanın ənginliyini, dərinliyini təcəssüm etdirə bilmişdir. Ağ yelkənlər

tünd göydən açıq maviyə qədər dəyişən rəng çalarları arasında xüsusilə effektli görünür. Göy, sakit rənglərin üstün olduğu kompozisiyaya qırmızı-sarı yelqovanlar daxil etməklə rəssam əsərin kolorit həllini zənginləşdirmiş, onun rəngarəng təsir bağışlamasına nail olmuşdur. Qırmızı və sarı rənglər tablodakı sakitliyi, süstlüyü sanki aradan qaldıraraq kompozisiyanı daha ekspressiv, daha hərəkətli edir. Qeyd edək ki, bu tablo 1983-cü ildə Bakıda, "Heykəltəraşlıq və idman" sərgisində nümayiş etdirilib.

Rəssamın "Deltaplaneristlər" tablosu kompozisiya və rəng həlli baxımından "Ağ yelkənlər" əsərini xatırladır. Hər iki əsərdə durğun görünən açıq göy rəngli səma əks edilib. Lakin "Deltaplaneristlər" tablosunda dəniz deyil, güllü təpəlik əks olunub. Tablodakı yelkənlər, yelqovanlaristər istəməz "Ağ yelkənlər" kompozisiyası ilə paralel assosiasiyalar yaradır. Hər iki kompozisiyada genişboşluqlar, durğun səmadan ibarət arasahələr verilmişdir ki, bu da hərəkətsizlik, süstlük effekti yaradır.

"Deltaplaneristlər" tablosunda səmada deltaplanda (yüngül konstruksiyalı qanadı olan motorsuz uçuş aparatında) pərvaz edən idmançı görünür. Daha iki nəfər isə yerdə dayanaraq onun uçuşunu izləyir. Yerdə bir neçə bükülmüş deltaplan, küləyin istiqamətini müəyyən edən qurğu və s. nəzərə çarpır. Kompozisiyada demək olar ki, başqa heç nə yoxdur. İnsan fiqurları çox kiçik verildiyindən onları bədii obraz kimi qəbul etmək mümkün deyil (eyni prinsip "Ağ yelkənlər" əsərində də özünü büruzə verir). Bəlkə də hər iki əsəri idman seriyasına aid etmək olar, baxmayaraq ki, burada yarışın mühüm məqamları, yaxud emosionallıqla ifadə edilmiş idmançı səyləri nəzərə çarpmır. Sözü gedən əsərlər realist quruluşa malik olub S.Mirzəzadənin elə həmin dövrdə (ötən əsrin 80-ci illərində) işlədiyi rəmzi-dekorativ üslubdançox uzaqdır. Rəssam yaradıcılığının sonrakı dövrlərində idman mövzusuna demək olar ki, müraciət etməyib. Lakin hər halda bu mövzu onun erkən dövr yaradıcılığında müəyyən iz buraxmışdır. Əlbəttə, bu tipli kompozisiyalar S.Mirzəzadənin yaradıcılığının erkən dövrləri üçün səciyyəvi idi. Həmin dövrdə rəssam hələ də kompozisiyanın quruluşunda akademik rəssamlıq xüsusiyyətlərinə istinad edirdi. "Bu dövrdən etibarən rəssamın yaradıcılıq metodunda həyatın təsvirinə "yeni yanaşma"ya üstünlük verməsi daha qabarıq özünü büruzə verir. Reallığın "olduğu kimi", trivial "görüntü kimi" əks edilməsi metodundan imtina edərək, klassik orta əsrlər Azərbaycan miniatürlərində olduğu kimi, rəmzi düşüncəyə arxalanan və şərti, dekorativ təsvir dili ilə səciyyələnən təsvir tərzinə üstünlük verməsi güclənir" [2, 87]. Bu xüsusiyyətlər "Əcdadlarımızın torpaqları", "İlin üç fəsli" kimi tablolarda özünü büruzə verir.

Rəssamın simvolik-tematik xarakterli "İlin üç fəsli" tablosu maraqlı kompozisiya və kolorithəllinə malikdir. Kvadrat formalı bu əsər sanki üç şaquli hissəyə bölünmüşdür; hər bir hissə ilin bir fəslinitəcəssüm etdirir. Tablonun əsasən mavi-çəhrayı rənglərlə işlənmiş sol hissəsi yazı, əlvan kolorit həllinə malik mərkəzi hissəsi yayı əks etdirir; mərkəzi hissə həm də daha genişdir. Əsərin sağ hissəsinə gəlincə, burada sarı və qəhvəyi rəng tonlarının üstün olduğu payız təsvir olunmuşdur. Əsər rəmzi-simvolik məna daşıyır. Fəsillər həm də insanın gənclik, yetkinlik və qocalıq dövrlərini əks etdirir. Belə ki, tablonun sol hissəsində, aşağı tərəfdə müəllif çəhrayı rəngin fonunda ana olmağa hazırlaşan gəlin təsvir etmişdir [3]. Əks tərəfdə isə iri, gövdəli bir ağacın yanında ağ saqqallı, əli əsalı, pirani bir qoca durmuşdur. Cavan gəlin məcazi olaraq baharı, ömrünün payızına qədəm qoymuş qoca isə, əlbəttə ki, payızı təmsil edir. Burada istər-istəməz qocaman sənətkar, akademik Ö.Eldarovun "Ömrün dörd çağı" kompozisiyası yada düşür. Tablonun rəngarəng orta hissəsi isə yayı – ömrün qaynar çağını əks etdirir. Burada qız-gəlin tənəklərdən üzüm, ağaclardan meyvə dərir, müxtəlif təsərrüfat işlərilə məşğul olurlar. Onlardan yuxarıda qoyun sürüsü, arxa (yuxarı) planda isə evlər görünür. Maraqlıdır ki, rəssam ilin sonuncu fəslini – qışı göstərməmiş, üç fəsillə kifayətlənmişdir. Əlvan rənglərdən təşkil olunmuş bu kompozisiyaya xoş ovqat, coşqun, işgüzar həyat tərzi, nikbin əhvali-ruhiyyə xasdır. Görünür məhz buna görə müəllif qış fəslini göstərməyə ehtiyac duymayıb.

Mənzərə S.Mirzəzadə yaradıcılığının hətta erkən dövrü üçün o qədər də xarakterik olmayıb. Rəssamın kövrək duyğuları təbiət gözəlliklərinə deyil, insanın daxili aləminin rəmzi təcəssümünə köklənib. Ona görə də rəssamın təbiət görüntüləri bir qayda olaraq interyer məkanı ilə qonşu olan mədəni landşaftla hüdudlanır. Rəssamın simvolik təbiət mənzərəsinin təsvir olunduğu "Baharda" (1982) adlı tablosu diqqəti cəlb edir. Erkən dövrə aid olmasına baxmayaraq burada simvolizm xüsusiyyətlərinə rast gəlinir. Kompozisiya tamamilə iki təzadlı rəngin – al-qırmızı və tünd-göyün qarşılığı əsasında qurulmuşdur. Rəssam qırmızı rənglə ağacları, göy rənglə ətrafı, fonu təsvir etmişdir. Həm ağaclar üzərində, həm də göy fonda xırda güllər, çiçəklər diqqəti cəlb edir. Diqqətlə baxdıqda göy-qırmızı fon üzərində kiçik arılar, pərvanələr, balıqqulağı da görünür. Lakin tablonun əsas elementi kimi şanapipik quşunu qeyd etmək lazımdır. Bu quş rəssamın yaradıcılığının demək olar ki, bütün mərhələlərində onun əsərlərində nəzərə çarpır. Haşiyə çıxaraq qeyd etmək istərdik ki, nağıllarımızda, milli folklorumuzda yer alan şanapipik quşuna simvolizmə meyl edən digər Azərbaycan rəssamları da (misal üçün Sara Manafova) müraciət ediblər. Şanapipik quşu bu günə qədər rəssamın yaradıcılığında əsas simvolik ifadə vasitələrindən biri kimi özünü büruzə verir.

Rəmzi xüsusiyyətlərin tablolarda əksi hələ erkən dövrlərdən S.Mirzəzadənin yaradıcılığında özünü göstərmişdir. Rəssamın 80-ci illər yaradıcılığına diqqət yetirsək, burada dekorativliklə yanaşı, həm də rəmzi mahiyyətin bərqərar olduğunu görərik. Tematikasından asılı olaraq rəmzi mahiyyət onun bəzi əsərlərində az, digərlərində isə əksinə, çox nəzərə çarpır. Misal üçün, 80-ci illərin maraqlı, monumental ruhlu tablolarından olan "İlin üç fəsli" kompozisiyasında rəmzi mahiyyət güclüdür. Lakin rəssamın o dövrdə yaratdığı natürmortlarda rəmzi xarakter özünü demək olar ki, büruzə vermir. Rəssamın "Bakı sabahın xeyir" (1985) adlı kompozisiyası rəmzi məzmunun kifayət qədər güclü olduğu tablolardandır. Həmin illərdə rəssam realist görüntülərlə abstrakt məzmun arasında manevrlər edərək öz həqiqi üslubunu tapmağa, yaratmağa cəhd edirdi [4]. 90-cı illərin əvvəllərindən etibarən rəssam yaradıcılıq dünyasınınyeni qatlarını açdı və sadə kompozisiya prinsiplərinin üstün olduğu dəst-xətdən uzaqlaşdı.

"Bakı sabahın xeyir" kompozisiyası formaca xeyli uzun olub nəqledici xətti yuxarıdan aşağıya doğru istiqamətlənmişdir. Tablo demək olar ki, başdan-başa tünd göy rəngli səma fonundan ibarətdir. Əslində rəssam səhəri deyil, bəlkə də dan yerinin yenicə sökülməyə başladığı erkən sübh anlarını əks etdirmişdir. Kompozisiyanın yuxarı hissəsində üç mələk, aşağı hissəsində isə Bakı şəhəri, onun tanış tikililəri – Bakı Şəhər İH-nin (Baksovetin), Filarmoniyanın binaları, qədim İçərişəhərin müxtəlif tikililəri – məscidlər, minarələr, baştağlar və s. görünür. Kompozisiya uzun olduğundan mələklərlə şəhər arasında bir boşluq, ölçü uyğunsuzluğu yaranır. Lakin göydəki bu mələklər səhəri qarşılamağa hazırlaşan şəhərə gül səpirlər. Səpilən güllərin yağışı səmanın tünd göy boşluğunu qırmızı, sarı, göy çiçəklərlə bəzəyərək boşluğu doldurur. S.Mirzəzadə göy və qırmızı rənglərin kontrast növbələşməsindən məharətlə istifadə edən rəssamlardandır (1982-ci ildə yaradılmış "Baharda" kompozisiyasını xatırlayaq). Oxşar kolorit xüsusiyyətləri "Bakı sabahın xeyir" kompozisiyasında da təkrarlanır. Göydən şəhərin üzərinə səpilən gül yağışı rəmzi məna daşımaqla yanaşı, həm də əsərin məna yükünə nikbin ovqat daxil edir.

Məlum olduğu kimi, S.Mirzəzadə monumentalçı-rəssam ixtisası üzrə ali təhsil almışdır [5]. Bununla belə rəssamın ilk dəzgah yaradıcılığı nümunələrində monumentalizm təmayülləri özünü hələ göstərmirdi. Lakin tezliklə onun yaradıcılığında dekortivizmlə yanaşı, həm də momumentalizm xüsusiyyətləri özünü büruzə verməyə başladı. 70-ci illərdən fərqli olaraq rəssamın 80-ci illərdə yaratdığı bir çox tablolara monumentalizm ruhu hakimdir. Rəmzilik və dekorativliklə yanaşı monumentalizm rəssamın yaradıcılığının erkən və qismən orta mərhələsində özünü büruzə verir. "Əcdadlarımızın torpaqları" (1983) kompozisiyası rəmzi-dekorativ mahiyyətlə yanaşı, həm də monumentalizm xüsusiyyətlərinə malikdir. Monumentalizm xüsusiyyətləri kompozisiyanın formasında, görünüşündə, fakturasında, hətta adında belə duyulmaqdadır. Əsər qeyri-ənənəvi görünüşə malikdir. Kiçik ölçülü kvadratlar bir yerə toplanaraq ümumi kompozisiya əmələ gətirmişdir (sonralar buna bənzər rəngli kvadratlar Gənc Tamaşaçılar Teatrının eksteryerini bəzədi). 30-dan artıq kvadratın toplandığı bu kompozisiya bütövlükdə Azərbaycan torpağını, onun qədim tarixini və mədəniyyətini təmsil edir. Hər bir kvadratda tarix və mədəniyyətimizlə bağlı müəyyən bir görüntü, tarixi-memarlıq abidəsi, bədii simvol və s. əks olunur. Müxtəlif rənglərdə olan bu kvadratlar kompozisiyanı olduqca effektli və rəngarəng göstərir. Onlardan birində Qız qalası, ikincisində ləpələnən Xəzər sahili, üçüncüsündə buta, bir başqasında muğam üçlüyü və s. təsvir olunur. Şanapipik, Qobustan qaya təsvirləri, daş abidələr, daş at fiquru, misgərlik nümunələri və digər görüntülər hərəsi bir kvadratda bərqərar olmuşdur. Birlikdə bütün bunlar maraqlı və rəngarəng bir kollaj əmələ gətirərək Azərbaycan tarixi və mədəniyyətinin bədii dillə ifadə edilmiş müxtəsər səhnəsini göz önündə canlandırır [6].

S.Mirzəzadənin yaradıcılığının erkən dövrünü səciyyələndirən əsas mövzulardan biri də siyasi mövzudur. Məlum olduğu kimi o zamankı ideologiya rəssamlardan beynəlxalq siyasi mövzuda aktivlik tələb edirdi. S.Mirzəzadə də öz yaradıcılığında bu mövzulara yer ayırırdı. 70-80-ci illərdə Yaxın Şərqdə siyasi vəziyyətin gərginləşməsi, hərbi münaqişələr, fələstinlilərin öz doğma yurd-yuvalarından didərgin düşməsi hamı kimi S.Mirzəzadəni də düşündürürdü. Rəssam bu aktual mövzuda bir neçə rəngkarlıq əsəri çəkmişdir. "Fələstin qaçqınları", "Biz qalib gələcəyik" kimi tablolar həmin mövzuya həsr edilib. Bu tablolarda dövrün tələbləri ilə yanaşı, həm də gənc rəssamın qəlbinin çağırışları bədii-emosional tərzdə öz bədii ifadəsini tapmışdır.

## Ədəbiyyat:


1. Əliyev T. Suzanın nağıl dünyası // "Qobustan" incəsənət toplusu, 1984, № 3.
2. İbrahimov T.İ. Müasir Azərbaycan rəngkarlığının bəzi təmayülləri Sirus Mirzəzadə yaradıcılığı timsalında // İncəsənət və mədəniyyət problemləri (Beynəlxalq elmi jurnal), 2016, № 2 (56), s. 86-91.
3. Vəliyeva N.H. Əməkdar rəssam Sirus Mirzəzadənin yaradıcılığında qadın mövzusu. // İncəsənət və mədəniyyət problemləri (Beynəlxalq elmi jurnal), 2017, № 1 (59), s. 86-91.

4.http://azertag.az/ru/xeber/Personalnaya_vystavka_zasluzhennogo_hudozhnika_Sirusa_Mirzazade_posv yashchena_70_letnemu_yubileyu_mastera-816837
5. https://worldart2011.wordpress.com/category/mozaika/
6. http://www.kaspiy.az/news.php?id=20410#.WRsBR-vygdU

**Наиба Велиева**

**70-80-е годы XX века как ранний период творчества художника Сируза МирзазадеРезюме**

Статья посвящена исследованию раннего периода творчества Заслуженного художника Сируза Мирзазаде. Известно, что 70-80-е годы прошлого века являются ранним периодом творчества молодого художника. В этот период, помимо монументальных композиций, он создал много работ в области станкового искусства. Эти работы отличаются композиционной простотой, реалистической трактовкой сюжетной линии, ярким национальным колоритом. Несмотря на то,что со времени их создания прошло много лет, эти ранние работы художника до сих пор не утратили значения, имеют определенное значение в оценке раннего периода деятельности С.Мирзазаде.

**Ключевые слова*:*** Сируз Мирзазаде, искусство Азербайджана, живопись, натюрморт, тематруда в искусстве.

**Naiba Valiyeva**

**70-80th years of the XX century as an early period ofthe creativity of the artist Sirus Mirzazade**

**Summary**

The article is devoted to the study of the early period of creativity of the Honored artist Sirus Mirzazade. It is known that the 70-80s of the last century were an early period of the young artist's work. In this period, in addition to monumental compositions, he created many easel paintings. These works are distinguished by their compositional simplicity, realistic interpretation of the story line, and bright national color. Despite the fact that many years have passed since their creation, these early works of the artist have not lost their significance, they have a certain value in assessing S. Mirzazade’s early period ofactivity.

**Keywords*:*** Sirus Mirzazade, Art of Azerbaijan, colority, still life, labour theme in art.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 26.10.2017 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 08.11.2017Məqalənin çapa qəbul olunma tarixi: 15.12.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Aslanova**
**ADMİU-nun Elmi Şurasının 21 dekabr 2017-ci il, 04 saylı qərarı ilə çap olunur**